***Aytən CƏFƏROVA***
***Filologiya üzrə fəlsəfə doktoru***
***AMEA Naxçıvan Bölməsi İncəsənət,***
***Dil və Ədəbiyyat İnstitutu***
***e-mail: ceferli_ayten@mail.ru***

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA QADININ MƏNƏVİ ALƏMİ VƏ ZAHİRİ GÖZƏLLİYİNİN POETİK İFADƏSİ

**Xülasə**

Aşıq Ələsgər yaradıcılığı müxtəlif mövzularla əhatələnərək bu mövzuları poetik şəkildə təcəssüm etdirən dəyərli nümunələrlə zəngindir. Aşıq özü təhsil görmədiyinə baxmayaraq təsvir etdiyi mövzuları elə maraqlı ümumiləşdirmələrlə təqdim edir ki, hər bir şeirində dərin fəlsəfə, dünyagörüş duyulur. Belə əsərləri yalnız təhsil görən şəxs həyata keçirə bilərsə, Aşıq Ələsgər isə Tanrının ona bəxş etdiyi vergi, dərin düşüncə, ən əsası da aşıqlığa olan böyük sevgisi sayəsində belə dəyərli əsərlər ərsəyə gətirmişdir. Aşığın yaradıcılığı, qeyd etdiyimiz kimi, müxtəlif mövzularla əhatələnib, o cümlədən, o, qadın, onun qeyri-adi xarici və daxili gözəlliklər məcmusu olması haqda bir-birindən maraqlı, diqqətçəkən şeirlər ərsəyə gətirmişdir. Bu əsərləri vasitəsilə aşıq yeri gəldikcə cinas qafiyələrdən, səs-söz qoşalaşmasından istifadə edərək mükəmməl şeirlər ərsəyə gətirmişdir. Ələsgər yaradıcılığı məhz bu keyfiyyətlərə görə, sözün poetik imkanlardan olduqca peşəkarcasına istifadə xüsusiyyətilə hər zamanda seçilmişdir. Qeyd edək ki, Aşıq Ələsgər yaradıcılığı boyu qadının daxili və xarici gözəlliyinin vəhdətindən bəhs edərək kamil nümunələr yaratmışdır. Məqalədə bu barədə əhatəli şəkildə bəhs olunur.

**Açar sözlər:** *Aşıq Ələsgər, yaradıcılıq, qadın, xarici və daxili gözəllik, əsər, şeir, təhsil, poetik.*

***Ayten JAFAROVA***

## POETIC EXPRESSION OF A WOMAN'S SPIRITUAL WORLD AND EXTERNAL BEAUTY IN THE WORKS OF ASHIG ALASGAR

**Summary**

Ashig Alasgar's work covers a wide range of topics and is rich in valuable examples that poetically embody these themes. Although Ashug himself was not educated, he presents the topics with such interesting generalizations that in each of his poems there is a deep philosophy and worldview. Such works can be written only by an educated person, and Ashig Alasgar created such valuable

works thanks to the talent, deep thinking and, most importantly, his great love for the art of ashug. Ashig's work, as we have noted, covers a wide range of topics, including the creation of interesting and remarkable poems about a woman and her extraordinary external and internal beauties. Through these works, the ashig wrote perfect poems using pun rhymes and pairing of words and sounds. Alasgar's work has always been distinguished by these qualities, by the very professional use of the poetic possibilities of the word. It should be noted that throughout his career, Ashig Alasgar had created perfect examples of the unity of a woman's inner and outer beauty. The article discusses this in detail.

**Keywords:** *Ashig Alasgar, creativity, woman, outer and inner beauty, work, poetry, education, poetic.*

***Айтен ДЖАФАРОВА***

## ПОЭТИЧЕСКОЕ ВЫРАЖЕНИЕ ДУХОВНОГО МИРА И ВНЕШНЕЙ КРАСОТЫ ЖЕНЩИНЫ В ТВОРЧЕСТВЕ АШУГА АЛЕСКЕРА

**Резюме**

Творчество ашуга Алескера богато ценными образцами, охватывающими различные темы и поэтически воплощающими эти темы. Несмотря на то, что сам ашуг не получил образования, он представляет описываемые им темы с такими интересными обобщениями, что в каждом его стихотворении чувствуется глубокая философия, мировоззрение. Только образованный человек может реализовать такие произведения, то Ашуг Алескер создал такие ценные произведения благодаря дарованной ему богом мудрости, глубокой мысли и, самое главное, большой любви к любви. Творчество Ашуг, как мы уже упоминали, охватывает широкий круг тем, в том числе создание интересных и замечательных стихов о женщине, о ее необычной внешней и внутренней красоте. Благодаря этим произведениям ашуг, кстати, создал прекрасные стихи, используя рифмы, сочетания звуков и слов. Именно по этим качествам творчество Алескера всегда отличалось достаточно профессиональным использованием поэтических возможностей слова. Отметим, что Ашуг Алескер на протяжении всего своего творчества создавал совершенные образцы, говоря о единстве внутренней и внешней красоты женщины. Об этом подробно рассказывается в статье.

**Ключевые слова:** *Ашуг Алескер, творчество, женщина, внешняя и внутренняя красота, творчество, поэзия, образование, поэтика.*

**Giriş:** Qadın hər zaman cəmiyyətin əsası, dayağı hesab edilmişdir. Qadınsız bir cəmiyyət təsəvvür etmək mümkün deyildir. Müəyyən dövrlərdə türk ellərində qadın əgər dini yanaşmalar ucbatından əziyyət çəkən varlıq idisə, qədim türk dünyasında isə qadın ön sıralarda addımlayan, cəmiyyət həyatının hər sahəsində öz sözünü demiş varlıq hesab edilirdi, bir sözlə, müasir günümüzdə də qadın Tanrının bəşəriyyətə hədiyyəsi hesab olunur.

Ümumiyyətlə, qeyd edək ki, qadın hər zaman qarşılaşdığı çətinliklərinə sinə gərən, bu çətinlikləri dəf edərək şərəf qazanan varlıqdır. Demək olar ki, ulu keçmişin keşməkeşli tarixində qadın "kirpiyi ilə od götürən" varlıq kimi yadda qalmışdır. Ailəsinin, nəslinin, keçmişçinin, vətəninin, nəhayət, göz-bəbəyi kimi sevdiyi övladının yolunda bitməyən əzabları qəbul etmişdir. Bu əzablardan, ağrı-acılardan zərrə qədər inciməyən qadın gələcəyə ümidlə baxmış, gələcəyin nə vaxtsa onun və əzizi hesab etdiklərinin üzünə parlayacağına sonsuz ümid bəsləmişdir. Elə buna görədir ki, qadınlar müxtəlif dövrlərdə öz fədakarlığı ilə tarixin yaddaşına silinməz talelər yazmışlar.

Qədim türklərdə qadın öz qeyrətinin, namusunun, fədakarlığının dünya qadınları ilə müqayisədə olduqca yüksək mövqedə dayanışını müxtəlif sahələrdə nümayiş etdirmişdir. Biz bu məqamı qədim türk dastanlarında obrazlaşdırılmış qadınların timsalında da müşahidə edirik. İstər vətənin mübarizəsində, istər məişətində türk qadının əvəzdilməz rolu əbədidir. Və bu fədakarlıq Azərbaycan türklərinin qadınlarının timsalında özünün daha parlaq ifadəsini tapmaqdadır. Saysız-hesabsız Azərbaycan qadını dövrün amansız zərbələrindən üzüağ çıxıb tarixə öz qəhrəmanlıq imzasının möhürünü vurmuşdur. Söylənilənlər yalnız müharibə və döyüş baxımından deyil, hər sahədə Azərbaycan qadınının tükənməz güc-qüvvəyə malik olduğunu təsdiq edir. Güclü olduğu qədər zərif, zərif olduğu qədər həssas, həssas olduğu qədər bacarıqlı, bacarıqlı olduğu qədər qeyrətli, qeyrətli olduğu qədər də yaradıcıdır Azərbaycan qadını....

Sözün əsl mənasında söyləmək olar ki, Azərbaycan qadınları yol göstərmək, məsləhət vermək gücündə olmaqla, ağbirçək "rütbəsini" öz ağıl və fəarsətləri, bacarıqları ilə qazanmışlar. Zaman-zaman ağlının, qüdrətinin sayəsində dövlət işlərini idarə etmiş, diplomatik münasibətlər aparmış, Vətənin xeyrinə öz mənafeləri azmış kimi ailəsinin, övladının da mənafeyini inkar etmiş qadınlarımız olmuşdur. Hansı ki məhz belə qadınlarımızın bacarığı və səriştəsi ilə ağır və çətin döyüşlərdən qalib çıxıb sərkərdələrimiz. Tükənməz qeyrət simvolu olan azərbaycanlı qadınlar yeri gələndə öz daxili aləmlərində tüğyan edən hiss-həyəcanını nəzmə çevirib yaddaşlara ötürmüşdülər. Bunlar şairlikdən aşıqlıq mərtəbəsinədək yer alan qadınlarımızdır. Unudulmaz yazıçımız Ə.Cəfərzadənin dəyərli fikirləri yada düşür: "Xalqımız qadın

– ana adı ilə bağlı gözəl şeir inciləri düzən onlarla qadın aşıq və şairlər yetirmişdir. Hər şeydən artıq diqqəti cəlb edən də elə burasıdır ki, məhz Azərbaycanda, qadınlığın heç bir bəşəri hüququ olmadığı, feodalizm və dini əsarətin hökm sürdüyü bir ölkədə, vaxtilə, başqa məmləkətlərə nisbətən daha çox qadın aşıq və şair yetişmişdir" [Azərbaycanın aşıq və şair qadınları, 1974, 2 - 178].

Və bu baxımdan qadını hər zaman görkəmli şəxsiyyətlər öz əsərlərində tərif, təqdir etmişdirlər. Ümumiyyətlə, ərsəyə gələn əsərlərin ən yaxşısı məhz qadın gözəlliyinə həsr olunmuş əsərlərdir. Azərbaycan ədəbiyyatında da bu barədə çoxlu sayda əsərlər vardır.

Azərbaycan şifahi və yazılı ədəbiyyatında, o cümlədən, aşıq yaradıcılığında qadın barədə yaranmış, yazılmış bir-birindən maraqlı o qədər örnək var ki, müqayisə etsək hansının ilk, hansının son yerdə durması haqda fikir ayrılıqları yaranar. Qısacası, bunu demək mümkündür ki, əgər bu əsərlərin qəhrəmanı qadındırsa, onda onların hamısı özünəməxsus müsbət keyfiyyətlərə malikdir.

Aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Dədə Ələsgər də öz yaradıcılığının əsas hissəsini qadınlara, qadının Allah tərəfindən qeyri-adi xüsusiyyətlərlə bəzənməsini ifadə edən mövzulara həsr etmişdir. Odur ki, biz Aşıq Ələsgərin istər şeirlərində, istərsə də yaratdığı dastanlarında qadınlarla bağlı maraqlı məqamlarla qarşılaşırıq.

Ələsgər üçün sevgi olduqca müqəddəsdir. O, ilk sevgisi, eşqi olan Səhnəbanının eşqindən aşıqlığa başlayıb. Ələsgər üçün Səhnəbanı qədər gözəl, mərifətli, qabiliyyətli, şirin dilli bir qadın ola bilməzdi. Səhnəbanı ilə qovuşması əlçatmaz məqama gəlib yetişəndə ətrafındakı qohum-əqrəba onun halına acıyaraq başqa qızlara baxıb könül verməsini təklif edərkən Ələsgər onlara məhəl belə qoymur. Yenə də Səhnəbanının xəyalı ilə yaşamaq başqasına meyl etməkdən dəfələrlə yaxşı olduğunu düşünüb elə bu xəyalla da həyatına – aşıqlığına davam edir. Burda bir məqam da aşkarlanır: Ələsgər Səhnəbanıya olan dərin eşqinə qovuşa bilmir. Yanıb, yanıb kül olur. Lakin bu kül onu əsl eşqə – aşıqlığa qovuşmağına səbəb olur. Elə Səhnəbanını ilk sevdiyi günlərdən onda yaranan bu istedad eşqindən ayrılandan sonra özünün ən yüksək mərtəbəsinə qədər ucalır ki, bu da onun haqq aşıqlığı idi. Bildiyimiz kimi, aşıqlıq Tanrının bu sənət sahiblərinə bəxş etdiyi vergidir. Ona görə də Ələsgərə Tanrı tərəfindən bəxş edilən bu vergi məhz onun Səhnəbanıya olan sevgisi vasitəsilə mümkün olur.

Ələsgərin Səhnəbanıya olan təmiz, saf sevgisi elə ona verdiyi dəyərdən qaynaqlanır. Qədim türk düşüncəsində mövcud olan qadın haqqında düşüncələr, ona göstərilən hörmət, ehtiram Ələsgərin genində yaşayır ki, həddi-büluğa çatıb sevgi şərbətin içəndə da bu düşüncələri özünü büruzə verir. Ələsgər Səhnəbanıya təkcə

sevdiyi qız kimi deyil, həm də əsl insani keyfiyyətlərə malik dərin düşüncəli şəxsiyyət kimi yanaşır. Və bu yanaşması da onda Səhnəbanıya qarşı böyük sevgi formalaşdırır. Səhnəbanıdan ayrılmaq ona hədsiz dərəcədə ağır idi:

Müddətdi gözümnən olubdu iraq,
Əridib cismini dərdü-qəm, fəraq.
Büllur buxaq, lala yanaq, ay qabaq,
Ala gözdü Səhnəbanım gedibdi
[Aşıq Ələsgər, 2004, 1 - 201].

Qəhrəmanlıq eposumuz olan "Kitabi-Dədə Qorqud"da da qadınlar haqqında maraqlı düşüncələr mövcuddur. Qadını baş tacı hesab edən türk kişisi onun namuslu, iffətli, gülərüz, bacarıqlı olması ilə yanaşı xarici gözəlliyinə də üstünlük vermişdir. Oğuz elinin ağsaqqalı Dədə Qorqud da qadınları malik olduqları xüsusiyyətlərə görə müxtəlif tiplərə ayırmışdır. Və ya boylardakı qadınların cəsurluğu, kişilərlərlə birgə elin müdafiəsində çiyin-çiyinə döyüşməsi oğuz eli qadınları üçün xarakterik xüsusiyyət idi. "Dəli Domrul" boyunda isə biz daha fərqli düşüncədə qadın obrazını – öz canını həyat yoldaşının, yarının uğrunda qurban verməyə hazır olan qadını görürük. Elə bu baxımdan Dədə Qorqudun qadınları müxtəlif tiplərə ayırması da diqqət çəkir. Dədə Qorqud sadalanan müsbət keyfiyyətlər daşıyıcısı olan qadınlarla yanaşı mənfi, xoşagəlməz xüsusiyyətlərə malik olan qadınların varlığını da inkar etmir, bu məqamı poetik şəkildə belə ifadə edir:

Qadınlar dörd dürlüdür:
Birisi solduran soydur,
Birisi dolduran toydur,
Birisi evin dayağıdır,
Birisi, necə deyərlər, bayağıdır
[Kitabi-Dədə Qorqud, 2004, 3 - 22].

Aydın olur ki, Dədə Qorqud qadının bəşəriyyətə Tanrı tərəfindən bir ərməğan olmasını məlum etməklə yanaşı, onların bəzilərinin xoşagəlməz xüsusiyyətlər daşıyıcısı olmasını inkar etmir, hətta bundan təəssüf də edir. Aşıq Ələsgər də Dədə Qorqud düşüncəsindən, yanaşmasından irəli gələn məqamları öz əsərlərində qabardır. Aşıq təkcə qadınların xarici və mənəvi gözəlliklərini təsvir etmir, yeri gələndə qadınlarda rastlaşdığı çatışmazlıqları da şeirləri vasitəsilə islah etməyə şalışır. Aşağıdakı şeir də bu baxımdan maraqlıdır. Həmin şeiri aşıq həyat yoldaşı Anaxanımın onu da tərif edib şeir həsr etməsi istəyi ilə yazmışdı. Əslində, şeiri zarafat məqsədilə yazan aşığın həyat yoldaşı bundan çox incimiş, küsüb ata evinə getmişdi. Onu geri qaytarmaq üçün aşıq çox əziyyət çəkmişdi. Lakin şerin mətnindən də aşığın yumor, zarafatı hissi duyulur. Hər halda aşıq "Qızım, sənə de-

yirəm, gəlinim, sən eşit" məsəlinə uyğun olaraq Anaxanımın timsalında qadınlara ünvanladığı öyüdündən, iradından da qalmır:

Ala gözlü, nazlı dilbər,
Elindən xəbərin varmı?
Dörd bir yanın bağça söyüd,
Gülündən xəbərin varmı?

O zaman ki gəldim sizə,
Mayıl oldum qaşa-gözə,
Zibilin çıxıbdı dizə,
Külündən xəbərin varmı?

O vədə ki gəlin oldun,
Qabırğası qalın oldun.
Qaynanana zalım oldun,
Dilindən xəbərin varmı?

Ələsgərlə çəkmə dava,
Ariflər baxsın hesaba,
Cehizindir qırıq tava,
Malından xəbərin varmı?

[Aşıq Ələsgər, 2004, 1 - 256].

Ələsgər təkcə insanın – qadının mənəvi və xarici gözəlliyini deyil, onun ailəsi, qohum-əqrəbası, eli-obası ilə rəftarı, əxlaqı, təmizliyi, səliqəliliyi və s. kimi xüsusiyyətlərə malik olması kimi çox vacib dəyərləri təqdir edir, bu dəyərlərin mütləqliyini əsərlərində tez-tez xatırladırdı. Ümumiyyətlə, aşığın əsərlərində təsvir olunan əxalqi-fəlsəfi düşüncələr bütün zamanlar üçün aktuallıq daşıyır.

Qədim türk təfəkkürünün məhsulu olan düşüncələr sonrakı nəsil yaradıcı insanların yaradıcılığı üçün əsas mövzu olmaqla yanaşı Aşıq Ələsgər dünyası, fəlsəfəsi, yaradıcılığı üçün də hakim idi: Aşıq Ələsgər də Dədə Qorquddan üzübəri gələn qadınlar haqda olan əvvəldə təqdim etdiyimiz bu dəyərləndirməni əsas tutaraq olduqca maraqlı örnəklər yaratmışdır.

Professor Məhərrəm Qasımlı Aşıq Ələsgər yaradıcılığında təsvir edilən obrazların xarakteri, o cümlədən, qadın obrazları haqda maraqlı fikirlərlə çıxış edərək yazır:

"Aşıq Ələsgər yaradıcılığında ünvan konkretliyi var. Bunu təbiət, dağ, göl, bulaq və s. təsvir-tərənnümündə görmək olur...Eyni ünvan konkretliyi portretini

yaratdığı el gözəlləri ilə də bağlıdır. Belə ki, Aşıq Ələsgər təsvir və tərənnümünə ayrıva şeir həsr etdiyi oruza yaxın el gözəlinin (Güləndam, Mügünaz, Telli, Güllü, Gülpəri, Mələk, Gülxanım, Sarıköynək, Nənəpəri, Səhnəbanı, Həcər xanım, Şəkər xanım və s.) camal və kamal vəhdətindəki incəlikləri misilsiz sənətkarlıqla işləmiş və hər şeirində Azərbaycan milli gözəlinə məxsus yeni və bənzərsiz bir portret ortaya çıxarmışdır:

Səni gördüm, əl götürdüm dünyadan,
Alagözlü, qələmqaşlı Güləndam!
Alma yanağına, bal dodağına,
Baxan kimi ağlım çaşdı, Güləndam!

Tovuz kimi şux bəzənib durubsan,
Ala gözə siyah sürmə vurubsan.
Sağ ol səni, yaxşı dövran qurubsan,
Bu dünyanın sonu puçdu, Güləndam!

[Qasımlı, 2019, 4-106].

Ələsgər qadının daxili keyfiyyəti və qeyri-adi xarici gözəlliyinin xiridarı kimi ən incə məqamları duyub sezə bilən aşıq idi. O özünü təkcə aşıq sanmırdı: "Həm aşığam, həm həm dərvişəm, həm dəli" kimi böyük məna ümumiləşdirmələri ilə, yeri gələndə, özünü xarakterizə edirdi. Bu üç dəyərləndirmədə aşığın üç xüsusiyyəti gizlənir. Təbii ki, bu dəyərləndirmələri Ələsgər gözəllərin – qadınların xislətini, gözəlliyini ayırd etmək üçün istifadə edir. "Həm aşığam" – deyəndə, Tanrı tərəfindən bəxş edilən haqq aşığnı nəzərdə tutur ki, əsl haqq aşıqları öz sevdiyi, aşiq olduğu qadının da dəyərli keyfiyyətlərə malik olmasını, haqq aşığına layiq olmasını vurğulaylır. "Həm dərvişəm", dedikdə isə nəfsini doyurmuş, "əsl ərmiş", haqqa doğru addımlayan bir varlıq olduğunu, gördüyü, aşiq olduğu gözəllərin xarici cazibəsinə uymayıb, onların daxilən keyfiyyətli olmasını qəbul edən bir şəxsiyyət olduğunu vurğulayır. "Həm dəli", dedikdə isə, igid, qocaq, sevgisi, eşqi uğrunda mübarizə edəcək gücə malik aşiq-aşıq olduğunu ifadə edir. Elə ilk eşqi Səhnəbanıyla bağlı yaratdığı örnəkdə dediyi kimi:

Yanaqları güldü olubdu xəndan,
Cismidə mələkdi, nəsildə insan.
Simi-zənəxdandı, mirvari – dəndan,
İnnabi ləbləri can dərmanıdı.

Adım Ələsgərdi, əslim Göyçəli,
Ələst aləmində demişəm "bəli!"

Həm aşığam, həm dərvişəm, həm dəli,
Canım gözəllərin yol qurbanıdı

[Aşıq Ələsgər, 2004, 1-206].

Ələsgər qadının bir işarəylə qarşıdakının sözünü anlamasını onu dərin ağlı, düşüncəsi ilə izah edir. Bu xüsusiyyəti dəyərləndirən aşıq Səhnəbanıyla bağlı yaratdığı qomasında belə deyir:

Can qurban eyləsən, layiqdi, layiq,
Bir var ki mətləbi tez qanan ola.
İşarətnən, qaş-gözünən annıya,
Nəinki deməknən söz qanan ola.

Canım qurban osun o əhli-dilə,
Qaşdarın oynada, gözünən gülə.
Dilin tərpənməmiş dərdini bilə,
Qurbanam gözünə, göz qanan ola

[Aşıq Ələsgər, 2004, 1 - 209].

Ələsgərin qadına verdiyi dəyəri onun yaradıcılığı ilə bağlı olan örnəklərdə aydınca görürük. "Aşıq Ələsgər Yanşaqda" adlı dastan-rəvayətdə həyat yoldaşı Anaxanıma olan münasibəti əsl insani dəyər daşıyıcısı haqda – Ələsgər haqda düşüncələri bir daha aydınlaşdırır. Ələsgər Yanşaqdan alıb gətirdiyi Anaxanımın öz eli-obası üçün xiffət çəkdiyini görüb, çətin yollar aşmasına baxmayaraq onu tez-tez yurduna aparır. İş o yerə çatır ki, Ələsgər Anaxanımın qəlbini qırımır, tamamilə Yanşağa köçüb orada yaşamaları haqda Anaxanımın istəyinə qarşı çıxa bilmir. Öz yurduna hədsiz dərəcədə bağlı olan Ələsgər Anaxanımın xətri üçün Yanşağa köçür... Buradan aydın görünür ki, Ələsgər hələ qadın hüququ deyilən bir anlayışın çox zəid olduğu dönəmlərdə belə qadının azad, öz istəyini həyata keçirmə iqtidarında olması tərəfdarı kimi, öz həyat yoldaşına da belə münasibət bəsləyir. Əsl insani keyfiyyətlərdən yoğrulmuş Ələsgər qadını təkcə bir insan kimi deyil, bir ana kimi, Tanrının bəşəriyyətə bəxş etdiyi əvəzsiz ərmağan kimi qəbul edərək ona hörmət bəsləyir. Əgər bir qadın bir kişiyə həvalə olunursa, onun bütün çətinliklərinin də öhdəsindən həmin kişi gəlməyi bacarmalıdır. Və Ələsgər də öz həyat yoldaşı üzərindəki məsuliyyətini başa düşməklə yanaşı humanist duyğularla onun qayğısına qalır.

Ələsgər yaradıcılığında gözəllərin tərənnümü o qədər aydın və real təsvir olunur ki, yeri gəldikcə zahiri qeyri-adi gözəlliyi daxili humanist duyğular, əsl qadına xas keyfiyyətlər bəzəyir. Ələsgər bir çox qoşmalarında bu gözəlləri o qədər səmimi təsvir edir ki, çox zaman onların daxili keyfiyyətlərinin ifadəsinə ehtiyac qalmır: xaricən tamlığa bürünmüş gözəl Ələsgər yaradıcılığında daxilən də tamamlanmış gözəldir. Elə Güləndam kimi:

Səni gördüm, əl götürdüm dünyadan,
Ala gözlü, qələm qaşlı Güləndam!
Alma yanağını, ay qabağını
Görən kimi ağlım çaşdı, Güləndam!
[Aşıq Ələsgər, 2004, 1-53].

Aşıq Ələsgər tanıdığı və rastlaşdığı qadınlarda bəyəndiyi xüsusiyyətlərə biganə qalmamış, bu xüsusiyyətləri tərif edib poetikləşdirməkdən, demək olar ki, zövq almışdır. Aşığın qadına qarşı olan bu münasibətində Tanrının bəşəriyyətə bəxş etdiyi bu varlığın dəyəri üçün şükrünü də ifadə edir. Yəni Ələsgər Tanrının yaratdığı bu gözəlliyə heyrandır. Məhz bu heyranlığı da Əlsgərin Tanrıya şükrünü ifadə edə bilər. Odur ki, Ələsgər bu hisslərini poetikləşdirməyin əsl ustad kimi öhdəsinədən gəlir. Lakin Ələsgər, əvvəldə də qeyd etdiyimiz kimi, "hər yetən gözələ gözəl demir", gözəlin tam şəkildə müsbət dəyərlərə malik olmasını arzu edir. Buna görə də müxtəlif adlarla yazdığı gözəlləmələrinin hər sətrində əsas məqsədini – daxili və xarici gözəlliyi vəhdətdə olan gözəl görmək arzusunu ifadə edir. Bu fikrə aşığın bir çox şeirindən misal göstərmək mükündür, amma "Bəyistan" şeirində söylənilən fikir öz təsdiqini daha aydın tapır:

Dodağın qönçədi, dişlərin sədəf,
Qaşların qüdrətdən qara, Bəyistan!
Gəl elə süzdürmə ala gözləri,
Vurma ürəyimə yara, Bəyistan!

Eşq əhliyəm, dərd çəkməkdən üzülləm,
Nəsildən nəsibsən, əslini billəm.
Bir saat camalın görməsəm, ölləm,
Görsəm də yanaram nara, Bəyistan!

Qəza-qədər məni kəc dolandırar,
Sevəni sevəndən tez usandırar.
Bülbül özün oda vurar, yandırar,
Qönçə meylin versə xara, Bəyistan!

Ələsgərəm, doğru yoldan azmaram,
Hərcayi gözələ tərif yazmaram.
Yüz ilə keçsə, əlim səndən üzmərəm,
Çəksələr dilimdən dara, Bəyistan!
[Aşıq Ələsgər, 2004, 1-29].

**Sonuç:** Ələsgər yaradıcılığında qadın təsviri ilə bağlı yaranmış şeirləri aşiqin lirik duyğularını ifadə etməklə yanaşı fəlsəfi mahiyyət də daşıyır. Bu baxımdan Ələsgər qadınların həm daxili, həm də xarici gözəlliklərinin vəhdətindən, el gözəllərinin təravət və yaraşığından ünvanlı şəkildə söz açaraq məşhur gözəlləmələr də yaratmışdır. Və həmin gözəlləmələr də Dədə Ələsgərin qadınlarla bağlı düşüncələrinin, qadın möhtəşəmliyinə olan vurğunluğunun nə qədər dərin gücə malik olduğunu bir daha təsdiqləyir.

## QAYNAQLAR

1. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
2. Azərbaycanın aşıq və şair qadınları. Bakı: Gənclik, 1974, 185 s.
3. Kitabi-Dədə Qorqud. Bakı: Öndər, 2004, 376 s.
4. Qasımlı M. Azərbaycan aşıq ədəbiyyatı. Bakı: Şərq-Qərb, 2019, 200 səh.

*Daxilolma tarixi: İlkin variant 09.03.2021*
*Son variant 12.04.2021*